# MULTİKULTURALİZMİN AZƏRBAYCAN MODELİ: ÜMUMİ VƏ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ



**Esmira İsmayılova,**
*Lənkəran Dövlət Universitetinin Pedaqogika, psixologiya və incəsənət kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru*
*e-mail: esmira.ans@mail.ru*
*https://doi.org/10.30546/2706-7858.2026.1.210*

**UOT:** 82.09

**Xülasə**. *Məqalədə multikulturalizmin Azərbaycan modelinin əsas xüsusiyyətləri, fərqli cəhətləri, ölkədə multikulturalizmin inkişafında ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu, fəaliyyəti təhlil edilir. Həmçinin tədqiqat işində müxtəlif ölkələrdə multikulturalizmin spesifik modelləri (İsveç, Avstraliya, Kanada, ABŞ) ilə yanaşı, multikulturalizmin Azərbaycan modelinin dünyada qəbul edilməsindən, ölkəmizdə uğurlu tətbiqi və nəticələrindən bəhs edilir. Eyni zamanda Azərbaycan xalqının multikultural ənənələrinin qorunub saxlanılması istiqamətində son illərdə həyata keçirilən dövlət siyasətinin əsas xüsusiyyətləri təhlil olunaraq ölkədə mədəni, dil, din və etnik müxtəlifliyin qorunub saxlanılması istiqamətində yürüdülən dövlət siyasətinin uğurlu nəticələri son illərin təcrübəsi əsasında araşdırılmış, analiz və sintez edilərək ümumiləşdirmələr aparılmışdır. Ölkədə tolerant mühitin, mədəni, dini, linqvistik müxtəlifliyin qorunub saxlanılmasının təmin edilməsi vəziyyəti araşdırılarkən paralel olaraq multikulturalizm, millətlərarası və konfessiyalararası münasibətlər və dialoq məsələlərinə dair keçirilmiş beynəlxalq tədbirlər, elmi konfranslardan bəhs olunmuş, onların əhəmiyyəti açıqlanmışdır.*

***Açar sözlər:*** *multikulturalizm, Azərbaycan modeli, tolerantlıq, dini müxtəliflik, milli-mənəvi dəyərlər, multikultural ənənələr.*
***Keywords:*** *multiculturalism, Azerbaijani model, tolerance, religious diversity, national and spiritual values, multicultural traditions.*
***Ключевые слова:*** *мультикультурализм, Азербайджанская модель, толерантность, религиозное многообразие, национально-духовные ценности, мультикультурные традиции.*

Bu gün dünyada zəngin, fərqli, özünəməxsus milli, mənəvi, bəşəri dəyərlərə malik olan Azərbaycanın multikulturalizm prinsiplərini tətbiq edən, yayan ölkələrdən biri kimi tanınması, multikultural modelini formalaşdırması qürurverici faktdır. Azərbaycanda bu sahədə uzun əsrlər boyu bərqərar olan münasibətlərin təhlili göstərir ki, multikulturalizm hansı sözlə ifadə olunmasından asılı olmayaraq xalqımızın tarix boyu formalaşan milli keyfiyyəti, cəmiyyətin yaşam tərzi olub. Bu gün qətiyyətlə deyə bilərik ki, artıq

multikulturalizmin Azərbaycan modeli tam formalaşıb, dövlət siyasətinə çevrilib və bu siyasət ölkəmizdəki çoxsaylı fərqli etnik, milli, dini azlıqların sülh şəraitində yaşamasına, bərabərhüquqlu fəaliyyətinə, inkişafına zəmin yaradır, onun təminatçısı kimi çıxış edir.

Azərbaycan tarixən çoxmədəniyyətli, çoxmillətli, çoxkonfessiyalı bir ölkə olmuşdur. Keçmiş dövrlərdən bugünədək burada avarlar, talışlar, ləzgilər, udinlər, kürdlər, xınalıqlılar, yəhudilər, tatlar və s. milli etnik qruplar sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Bunun əyani sübutu kimi qeyd edə bilərəm ki, yaşadığım cənub bölgəsində tarixən etnik qrup kimi məskunlaşan, özümün də mənsub olduğum talışlar regiondakı digər etnik azlıqlarla həmişə sülh və qarşılıqlı anlaşma, dostluq şəraitində yaşamış, əsrlər boyu bu ərazidə milli-etnik-dini zəmində heç bir toqquşmaya, insidentə yol verilməmişdir. Sevindirici haldır ki, tolerantlıq ənənəsi bu gün də bölgədə qorunulub saxlanılır, həm də modernləşdirilir, yeni-yeni detallarla zənginləşdirilir. Fikrimizcə, bölgənin sosial-iqtisadi, mədəni inkişafını şərtləndirən əsas amillərdən biri də, məhz bu birgəyaşayış faktoru, tolerantlıq ənənələrinə sadiqlik olub.

Böyük qürur hissi ilə qeyd edə bilərik ki, zəngin mədəni irsə, qədim tarixə malik Azərbaycanın multikulturalizmin məkanı kimi beynəlxalq aləmdə nüfuzu artmaqda davam edir. Tərəqqisini, gələcəyini milli köklər üzərində quran, mədəni müxtəlifliyi böyük sərvət hesab edən dövlətimizin uğurlu inkişafında tolerantlıq və multikultural dəyərlər əsas yer tutur. Sivilizasiyaların qovşağında, Şərqlə Qərbin coğrafi kəsişməsində yerləşən, çoxkonfessiyalı ölkəmiz etnik müxtəlifliyə, xalqların birgəyaşayışına böyük önəm verir, dinlərarası, mədəniyyətlərarası dialoqun inkişafında əhəmiyyətli rol oynayır və bu istiqamətdə keçirilən mühüm beynəlxalq tədbirlərə məkan olur.

Azərbaycanda fərqli etnik qruplara, azlıqlara, dinlərə dözümlülük mühitinin mövcudluğu humanist ideyalara sadiqliyin, sülhpərvərliyin, bəşəriliyin nümunəsi kimi dəyərləndirilir. Hərtərəfli və sürətli inkişaf dövrünə qədəm qoyan, dünyəvi, hüquqi və demokratik dövlət olan Azərbaycanın mükəmməl multikulturalizm modeli dünyada örnək olaraq qəbul edilir. Hazırda multikulturalizmin müxtəlif modelləri – ABŞ, İsveç, Hollandiya, Avstraliya, Kanada və s. növləri olmasına baxmayaraq Azərbaycanın dünyaya təqdim etdiyi İlham Əliyevin ideya müəllifi olduğu "Multikulturalizmin nikbin modeli" bu sahə üzrə mütəxəssislər və mütərəqqi dövlətlər tərəfindən rəğbətlə qarşılanaraq tətbiq edilməkdədir.

*Bəs multikulturalizmin əsas mahiyyəti nədir?* Ali məktəblər üçün olan dərslikdə bu terminin izahında oxuyuruq: "Multikulturalizm (çoxmədəniyyətlilik) – etnik, irqi, dini müxtəliflik ilə xarakterizə olunan və bir çox fərqli mədəniyyətin bir arada yaşadığı cəmiyyəti müəyyənləşdirən sözdür. O ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, həmçinin azsaylı xalqların, dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq multikulturalizm, tolerantlığın (dözümlülüyün) elə bir təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil. Multikulturalizm qloballaşma şəraitində mədəni dəyərlərin bərabərliyidir" [7, s.29].

Beynəlxalq anlayışda multikulturalizm eyni ölkədə yaşayan xalqların mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasət kimi qəbul olunur. Məsələyə bu rakursdan baxanda görünən odur ki, Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şərait yaradılıb və bu istiqamətdə işlər bu gün də davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında" 11 yanvar 2016-cı il tarixli Sərəncamı multikulturalizm ənənələrinin qorunub saxlanılması, daha da inkişaf etdirilməsi, eləcə də geniş təbliğ olunması və s. kimi məsələlərin daim ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu göstərir.

Həm Qərbin, həm də Şərqin demokratik ənənələrindən bəhrələnən Azərbaycan fərqli sivilizasiyaların qovuşduğu məkan olaraq tarix boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, müxtəlif millətlərin və konfessiyaların nü-

mayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı, fəaliyyət göstərdiyi ərazi olmuşdur. Burada tarix boyu milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma baş verməmiş, cəmiyyətdə multikultural dəyərlər hakim olmuş, qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər qorunub saxlanılmışdır. Yaşadığımız eranın V əsrindən başlayaraq yəhudilərin təqiblərdən qaçaraq Azərbaycana sığınması, buranı özlərinə Vətən bilmələri fikrimizin əyani sübutudur. Bəli, bu gün çoxlu sayda milli-dini-etnik azlıqların vətəni olan Azərbaycan cəmiyyətini səciyyələndirən əsas xüsusiyyət burada multikultural dəyərlərə sayğı və hörmətdir, bu dəyərlərin qorunulub nəsilbənəsil ötürülməsi mədəniyyətidir.

Azərbaycan bu gün dünyada multikulturalizm, sivilizasiyalar arasında dialoq mərkəzi kimi tanınır, qəbul edilir. Bu istiqaməti fəaliyyətinin ana xətti hesab edən, xalqımızın sahib olduğu multikultural dəyərləri dünyaya ardıcıl təqdim edən Heydər Əliyev Fondunun əməyini xüsusi qeyd etmək lazımdır. Belə ki, multikulturalizm və tolerantlıq məsələləri Heydər Əliyev Fondunun fəaliyyətində başlıca yer tutmaqla yanaşı, həm də ümumdünya əhəmiyyəti kəsb edir, Vatikandan Asiyaya, Şərqdən Afrikayadək böyük bir coğrafi arealı əhatə edir. Azərbaycanda tolerantlığın, multikultural ənənələrin təbliği ilə bağlı Heydər Əliyev Fondu tərəfindən davamlı olaraq möhtəşəm layihələr həyata keçirilir. Bu layihələrin tək Azərbaycanda deyil, eləcə də dünya arenasında da həyata keçirilməsi sübut edir ki, multikulturalizm həm ölkəmizdə dövlət siyasətidir, həm də beynəlxalq miqyasda interkulturalizmin prinsiplərinə əsaslanan mütərəqqi siyasət kimi yürüdülür və həyata keçirilir.

**Tədqiqatın mənbəyi və metodları**

Tədqiqat işinin obyektini alim və tədqiqatçıların Azərbaycanda multikultural mühitin formalaşması, bu modelin yaranması, təbliği ilə bağlı müxtəlif illərdə apardığı elmi araşdırmalar təşkil edir. Məqalədə Azərbaycanda multikulturalizm siyasətinin tətbiqindən, bu sahədə qazanılan uğurlardan, multikulturalizmin Azərbaycan modelinin formalaşması istiqamətində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin yürütdüyü çoxşaxəli siyasətdən söz açılır. Araşdırmada bu mövzuda yazılmış elmi əsərlərdən, həmçinin dövri mətbuatda dərc edilmiş məqalələrdən istifadə edilmiş, istinadlar verilmişdir. Bundan əlavə, tarixi-müqayisəli metod əsasında yazılmış, tədqiqatın predmet və obyekti kimi seçilən nümunələr və onlara həsr olunan araşdırmaların meydana çıxdığı tarixi şərait tədqiqat prosesində nəzərə alınmış, yeri gəldikcə müqayisəli paralellər aparılmış, mövzuya kompleks yanaşma və fərqli baxış bucağından nəzər salınmaqla ümumi nəticələr sistemli şəkildə təhlil edilmiş, ümumiləşdirmələr aparılmışdır.

**Multikultural ənənələrin Azərbaycan ədəbiyyatında əksi**

Ölkəmizdə multikulturalizmin yaranmasından, inkişafından danışarkən ilk olaraq onun bədii ədəbiyyatda əksi məsələsinə toxunmaq istərdik. Xatırladaq ki, ən qədim zamanlardan bəri müxtəlif dinlərə və etiqadlara inanan, fərqli dillərdə danışan çoxsaylı xalqlar və etnik qruplar Azərbaycanda sülh və əmin-amanlıq, dinclik və bərabərlik şəraitində yaşamışlar. Bu cür tolerant mühit və multikultural tarixi şərait təbii olaraq azərbaycanlıların bədii təfəkküründə, əsasən də ədəbiyyatında özünün obrazlı ifadəsini tapmışdır.

Klassik Azərbaycan ədəbiyyatını təmsil edən şair və yazıçıların ədəbi irsini araşdırarkən görürük ki, onların əksəriyyəti əsərlərində bu və ya digər formada multikultural düşüncə və dəyərlərə geniş yer ayırmışlar. İlk yazılı ədəbi abidəmiz olan, eramızın VII əsrinə aid edilən və bir sıra epizodları ilə kökləri daha qədimlərə gedib çıxan “Kitabi-Dədə Qorqud” eposunda multikultural dəyərlərin əks olunduğunu görürük. Məsələn, “Qanlı qoca oğlı Qanturalı boyu”nun (VI) əsas qəhrəmanı Sarı donlu Selcan xatunun dini, məzhəbi və milləti ayrıdır. Oğuz igidi Qanturalının başqa dindən olan Trabzon şahzadəsinin qızı ilə evlənməsi, ailəsinin onu heç bir fərq qoymadan doğması kimi qəbul etməsi faktı oğuzların əski çağlardan bəri digər dinlərin daşıyıcılarına olan isti münasibətindən xəbər verir. Dastanın baş qəhrəmanı Salur Qazanın, onun oğlu Uruzun, eləcə də Bamsı Beyrəyin davranışlarında da digər xalqlara mərhəmət və ehtiramın şahidi oluruq.

Azərbaycanın digər folklor nümunələrində də məsələn, “Əsli və Kərəm” dastanında, “Şeyx Sənan” əfsanəsində xristian qızı ilə müsəlman gəncinin yüksək, ülvi məhəbbətindən bəhs olunur ki,

bu da multikultural dəyərlər sırasında önəmli yer tutur. Klassik Azərbaycan ədəbiyyatının ən böyük nümayəndələrindən biri olan dahi şair və mütəfəkkir Nizami Gəncəvinin beş poemadan ibarət "Xəmsə"sində multikultural düşüncələr daha konkret şəkildə və geniş planda, həm də əlvan boyalarla öz əksini tapmışdır. Nizami Gəncəvi "Yeddi gözəl" və "İskəndərnamə" poemalarında bir sıra xalqların nümayəndələrinin parlaq surətlərini yaratmışdır. Bütün bunlar qüdrətli sənətkarın böyük ideallar carçısı və yüksək multikultural düşüncə sahibi olmasını açıq-aşkar şəkildə ortaya qoyur [8].

Multikultural düşüncələrin Azərbaycan ədəbiyyatında daha geniş əksinə XIX əsr ədəbiyyatında rast gəlirik. Milli dramaturgiyanın, publisistikanın, ədəbi tənqidin əsasını qoyan Mirzə Fətəli Axundzadənin yaradıcılığında multikultural dəyərlərə böyük yer verilib. Onun 1837-ci ildə dahi rus şairi A.S.Puşkinin ölümünə elegiya həsr etməsi, komediyalarında alman, fransız, erməni xalqlarının nümayəndələrinin bədii obrazlarını yaratması, onlara tolerant münasibət sərgiləməsi dediklərimizin sübutudur. Seyid Əzim Şirvaninin didaktik əsərlərində də multikulturalizm elementlərinə geniş yer ayrılmışdır.

XX əsrin əvvəllərindən başlayaraq ədəbiyyatımızda tolerantlıq mövzusunun geniş təsvirinə şahid oluruq. Maarifçi yazıçı-publisist Nəriman Nərimanovun "Bahadır və Sona" romanında, Cəlil Məmmədquluzadənin "Kamança" pyesində, Hüseyn Cavidin "Şeyx Sənan" faciəsində tolerantlıq aparıcı istiqamət kimi işlənilmiş, multikulturallıq ənənələri geniş təbliğ olunmuşdur.

Azərbaycan ədəbiyyatında multikulturalizm ideyalarının təsvirindən danışarkən Mirzə Ələkbər Sabirin yaradıcılığını xüsusi qeyd etmək lazımdır. Sabir "Beynəlmiləl" şeirində 1905-ci ildə baş vermiş erməni-müsəlman davasına qəti şəkildə etirazını bildirmiş, xalqlar arasında sülh, barışıq ideyalarının vacibliyini qeyd etmişdir.

XX əsrdə şairlərdən Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Nəbi Xəzri və başqalarının şeir və poemalarında multikulturallıq ənənələrinə geniş yer ayrılmışdır. Nəsrdə bu yükü İlyas Əfəndiyev daşımış, zamanında olduqca populyar olan, bu gün də maraqla oxunan "Dağlar arxasında üç dost" romanını yazmışdır. Şərq ədəbiyyatının klassik yazarlarından olan Seyid Məhəmmədhüseyn Şəhriyarın mövzuca zəngin, mənaca bitkin, yaradıcılıq üslubuna görə kamil yaradıcılığında multikulturallıq və tolerantlıq elementləri geniş yer tutur. Anadilli əsərlərində dini dözümlülüyü təbliğ edən, hər bir xalqın adət-ənənəsinə hörmətlə yanaşan, milli-mənəvi dəyərləri qorumağın vacibliyini dönə-dönə qeyd edən ustad sənətkar ana dilində yazdığı əsərlərində müxtəlif dinlərə mənsub qəhrəmanların heç birinin milliyyətinə, dini görüşlərinə qarşı çıxmır. Onun yaradıcılığında digər dinlərə və xalqların mədəniyyətinə, insan şəxsiyyətinə böyük ehtiram təbliğ və tərənnüm olunur [5, s.136].

**Azərbaycan multikulturalizmində milli-mənəvi, dini dəyərlərin və tolerantlıq ənənələrinin əksi**

Azərbaycanda dinin inkişaf tarixinə nəzər salsaq görərik ki, ayrı-ayrı dövrlərdə ölkə ərazisində bütpərəstlik, zərdüştlük, yəhudilik, xristianlıq kimi dinlər yayılıb. Qədim İpək Yolunun üzərində yerləşən və Qərblə Şərq arasında körpü rolunu oynayan Azərbaycan torpağı tarix boyu müxtəlif milli-etnik qrupların məskunlaşdığı, dinlərin qovuşduğu bir məkan olub. Ölkəmizin tarixi inkişafının xüsusiyyətləri, coğrafi mövqeyi, əhalisinin etnik tərkibi burada müxtəlif etnik qrupların yaşamasına, dinlərin mövcudluğuna şərait yaradıb. İlk növbədə, ərazidəki dini müxtəlifliyə diqqət edək. VII əsrin əvvəllərində Ərəbistan yarımadasında meydana çıxan İslam dini sürətlə dünyanın böyük bir hissəsində, o cümlədən Azərbaycanda da geniş yayılıb. Sonuncu səmavi din kimi İslam dini qərinələr, əsrlər boyunca Azərbaycan xalqının milli düşüncəsində yer alaraq mədəniyyətinin tərkib hissəsinə çevrilib. İslam dini ilə paralel olaraq buddizm, xristianlıq, yəhudilik və s. kimi dinlərin, dini təriqətlərin ölkə ərazisində yayılması da baş vermiş, ölkədə dini müxtəliflik formalaşmış və bu rəngarənglik günümüzədək qorunulub saxlanılmışdır. Xatırladaq ki, demokratikləşmənin ən vacib prinsiplərindən biri də milli mənsubiyyətindən, dilindən, irqindən, dini etiqadından asılı olmayaraq hamının hüquq bərabərliyinin qorunub saxlanılması, azadlıqlarının təmin edilməsidir. Çoxmillətli, çoxkonfessiyalı dövlət olan Azərbaycanda milliyyətindən, dilindən, dinindən, inanclarından, adət-ənənələrindən asılı olmayaraq insanların hamısına bərabər hüquqlar təmin edilməsi ölkənin bütün istiqamət-

lər üzrə inkişafının əsas qarantıdır.

Qeyd edək ki, çoxkonfessiyalı Azərbaycan əhalisinin təxminən 96 faizini müsəlmanlar, 4 faizini xristianlar, yəhudilər, bəhailər, krişnalar və digər dinlərin mənsubları təşkil edirlər. “Xristianlığın demək olar ki, bütün cərəyanları – pravoslav, katolik, lüteran və protestant təriqətləri, eləcə də tarixi Alban kilsəsinin mənsubları olan xristianlar ölkəmizdə təmsil olunurlar. Ölkənin xristian əhalisi, əsasən, Bakı, Sumqayıt, Gəncə şəhərlərinin, eləcə də Qax (gürcü pravoslavlar), İsmayıllı, Gədəbəy, Qobustan (molokanlar), Qəbələ və Oğuz (Nic qəsəbəsində və Oğuz şəhərində alban-udilər) rayonlarının əhalisidir. Katoliklər və lüteranlar daha çox Bakı şəhərində yaşayırlar. Hazırda Azərbaycanda 2 mindən çox məscid, 16 kilsə və 7 sinaqoq var. Kilsələrdən 5-i pravoslav (Bakıda 3, Gəncə və Xaçmazda 1), 4-ü gürcü pravoslav (Qax rayonu), 1-i lüteran, 1-i katolik və 2-si alban-udi dini icmasına mənsubdur. Yəhudi sinaqoqlarından 2-si Bakıda, 2-si Oğuzda, 3-ü Quba rayonunun Qırmızı qəsəbəsində yerləşir [1].

**Azərbaycanda multikulturalizm modelinin formalaşmasında Heydər Əliyevin rolu. İlham Əliyev multikulturalizmin nikbin qütbünün yaradıcısı kimi**

Multikulturalizmin ölkəmizdə yaranma tarixinə nəzər yetirsək görərik ki, Sovet İttifaqının dağılması ilə əlaqədar regionlarda bütün sferalarda xaos yaşanılıb. Bütün bunlara baxmayaraq Azərbaycan xalqının Ümummilli Lideri, müasir və müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin böyük dövlətçilik təcrübəsi və titanik səyləri nəticəsində ölkəmizdə tolerantlıq mühiti qorunub. Milli, etnik, dini qruplar arasında yüz illərə söykənən dostluq və birgəyaşayış münasibətləri mühafizə edilib. Ötən əsrin son onilliyində ölkənin müharibə şəraitində olması, ölkədə mövcud olan ağır iqtisadi-sosial vəziyyət, hakimiyyət kürsüsü uğrunda gedən daxili mübarizə separatizm meyillərinin güclənməsinə səbəb olub. Bu vəziyyət özlüyündə etnik-milli münasibətlərə, dini duruma da təsirsiz ötüşməyib. Dini zəmində vəziyyəti nizamlamaq daha çətin olub. Daxili qarışıqlıqdan, yaranmış qeyri-sabit, sosial-iqtisadi vəziyyətdən istifadə edən bəzi radikal dini cərəyanların nümayəndələrinin “xeyriyyəçilik” adı altında Azərbaycanda fəaliyyəti problemlərə meydan açıb. Ümummilli lider Heydər Əliyevin müdrik dövlətçilk siyasəti nəticəsində ölkədə dövlət-din münasibətlərinin hüquqi əsaslarının formalaşdırılması qısa zamanda müsbət nəticələrini verib. Vətəndaşların dini etiqad və vicdan azadlığı təmin olunub, bu sahə ilə bağlı qanunvericilik aktları beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb. Məhz bu addımların sayəsində ölkədə dini durumun müsbət və münaqişələrdən uzaq məcrada inkişafı üçün əlverişli şərait yaranıb, dövlətin din siyasəti respublikamızın milli maraqlarını, onun vətəndaşlarının təhlükəsizliyini təmin etmək, ümumiyyətlə, cəmiyyətdə sabit vəziyyət yaratmaq üzərində qurulub. Bütün bunların nəticəsində Azərbaycan dünyəvi, demokratik, hüquqi, unitar, uzun əsrlik milli-mənəvi dəyərlərinə söykənən dövlətə çevrildi.

Heydər Əliyevin hakimiyyətə ikinci dəfə qayıdışı ilə 70 illik sovet rejimi dövründə ibadət ocaqlarının fəaliyyətinə, dini ayinlərin icrasına qoyulmuş qadağalar tamamilə aradan qaldırıldı, yeni ibadət evlərinin tikintisinə başlanıldı, əksəriyyəti təmir edildi, yeni dini təhsil müəssisələrinin əsası qoyuldu. Əsas məqsəd yerli milli kadrların hazırlanması və dini maarifləndirmə işində daxili potensialdan istifadə olunması idi. Ulu öndər Heydər Əliyevin yürütdüyü düzgün siyasət sayəsində din sahəsində sabitlik təmin edildi, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı. 1993-cü ildən başlayaraq ölkəmizdə dövlət-din münasibətləri beynəlxalq hüquq normaları müstəvisində tənzimləndi. Ölkədə yaşayan milli, etnik, dini qrupların hamısı öz milli, dini bayramlarını azad və sərbəst şəkildə qeyd etmək imkanı əldə etdilər. Uzun illər baxımsız qaldığına görə, dağılmış ibadət ocaqları yenidən bərpa edilib xalqın istifadəsinə verildi. Dini konfessiyalar arasında dözümlülük mühiti daha da inkişaf etdirildi. Ulu Öndər milliyyətindən, irqindən, dinindən asılı olmayaraq Azərbaycanda məskunlaşan hər kəsin bütün sahələrdə hüquq bərabərliyinin dövlət tərəfindən təmin edilməsini prinsipial məsələ kimi bəyan etdi: *“...Ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları*

*Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik" [1].*

Ümummilli lider Heydər Əliyevin "Bizim hamımızın bir vətəni var. Bu, Azərbaycan dövlətidir" ifadəsi ölkəmizdə birlik və həmrəyliyin, millətlərarası münasibətlərin əsasını təşkil edir. Ölkədə yaşayan bütün xalqların vahid ideologiya – azərbaycançılıq ideologiyası ətrafında birləşdirilməsi müstəqil Azərbaycan dövlətinin mühüm nailiyyətidir. Heydər Əliyevin memarı olduğu bu müdrik siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla və ardıcıllıqla davam etdirilməsi ölkədə sabit və dinamik həyatın, inkişaf edən cəmiyyətin bərqərar olmasına zəmin yaradıb. Azərbaycanın əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olduğunu vurğulayan İlham Əliyev bildirdi ki, Azərbaycan Şərq və Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür: *"Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. "Multikulturalizm" sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri Azərbaycanın qədim şəhəri olan Şamaxıda 743-cü ildə inşa edilmişdir. Bununla yanaşı, ən qədim kilsələrdən biri – qədim Qafqaz Albaniyası dövrünə aid kilsə də, məhz Azərbaycanda, daha bir qədim şəhər olan Şəkinin yaxınlığında yerləşir. Hökumətimiz məscidlərin, pravoslav və katolik kilsələrinin, habelə sinaqoqların inşası və təmirinə maliyyə vəsaiti ayırır. Bu, bizim siyasətimiz və həyat tərzimizdir. Əsrlər boyu Azərbaycan ölkəmizdə mövcud olan siyasi və sosial vəziyyətə baxmayaraq bu sərvəti qoruyub saxlamışdır" [2].*

Tam yəqinliklə deyə bilərik ki, ölkə başçısı İlham Əliyev ulu öndər Heydər Əliyevin layiqli davamçısıdır, onun əsasını qoyduğu müasirlik və dini-mənəvi dəyərləri uzlaşdıran din siyasətini uğurla davam etdirir. Ölkə başçısı İslam dininin müqəddəs bayramları münasibəti ilə ölkəmizdəki müsəlmanlara, "Pasxa", "Milad" bayramları münasibəti ilə pravoslav, katolik xristian icmalarına, yəhudi vətəndaşlarının "Yeni il" bayramı, "Roş-Ha-Şana" münasibətilə yəhudi icmasına təbriklər ünvanlayır, ramazan ayında təşkil olunan iftar süfrəsində fəaliyyət göstərən müxtəlif Konfessiya rəhbərləri ilə birlikdə əyləşir, inşa olunan yeni ibadət yerlərinin açılışında iştirak edir, din sahəsində təşkil olunan konfranslara təbrik məktubları ünvanlayır.

44 günlük Vətən müharibəsi və ondan sonra aparılan antiterror əməliyyatları nəticəsində azad olmuş ərazilərimizdə dağılmış məscidlərin bərpası, əksəriyyətinin yenidən inşa olunması, onların açılışında dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı sübut edir ki, Azərbaycanda dini dəyərlərə böyük hörmət və ehtiram var, bu dəyərlər ölkə başçısı səviyyəsində qorunulub saxlanılır. Multikulturalizmin bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsi olmasında ölkə prezidentinin rolu danılmazdır. Məhz onun təşəbbüsü və dəstəyi ilə keçirilən Heydər Əliyev Fondunun yaxından köməkliyi ilə ərsəyə gələn tədbirlər ölkəmizdə multikultural təhlükəsizliyin intellektual göstəricilərinin artıq formalaşdığının təsdiqidir. Bəli, multikulturalizm bu gün Azərbaycanda gedən demokratik proseslərin ayrılmaz tərkib hissəsinə, dövlət siyasətinə çevrilmişdir. Dövlət başçısı İlham Əliyevin multikulturalizmin və tolerantlığın inkişafına, möhkəmləndirilməsinə və təbliğinə xüsusi diqqət və qayğısının nəticəsi olaraq ölkəmizdə etnomədəni münasibətlər özünün ən yüksək səviyyəsindədir. 2018-ci ildə "Yeni dünya və yeni insan formalaşdıraq: yaradıcılıq və insan inkişafı" mövzusunda keçirilmiş VI Bakı Beynəlxalq Humanitar Forumunun açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu nailiyyətimizi bir daha vurğulayaraq demişdir: *"Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşayıblar və bu siyasət bu gün*

*də davam etdirilir. Azərbaycanda bu istiqamətdə dövlət siyasəti çox səmərəlidir və gözəl nəticələrə gətirib çıxarır. Bizim tarixi keçmişimiz, mədəniyyətimiz onu göstərir ki, müxtəlif dinlərin nümayəndələri Azərbaycanda həmişə çox rahat yaşayıblar, bir ailə kimi yaşayıblar. Bizim tarixi, dini abidələrimiz həm qədim tariximizi göstərir, eyni zamanda göstərir ki, Azərbaycan müxtəlif dinlərin nümayəndələri üçün doğma diyar, doğma məkan olmuşdur" [4].*

Azərbaycanda multikulturalizmin inkişafını tədqiq edən mütəxəssislərin əksəriyyəti bu siyasətin inkişaf tarixini ölkəmizdə müstəqilliyin bərpasından hesablayırlar. "Hesab edirik ki, bu inkişaf mərhələləri 1991–1995, 1995–2000, 2000–2010, 2010–2020 kimi götürülməlidir. Xalqımızın tarixi köklərini araşdırdıqca yeni-yeni meyarlar üzrə çıxır, türkdilli xalqların qədim dövrlərdən bir-birinə sıx bağlılığı sübuta yetirilir" [3].

Ötən XX əsrin son onilliklərindən başlayaraq multikulturalizmin ABŞ, İsveçrə, Hollandiya, Avstraliya, Kanada, Almaniya və s. modellərinin olmasına baxmayaraq Azərbaycanın dünyaya təqdim etdiyi model müasir dünyada daha uğurlu hesab edilir və bir çox dövlətlər tərəfindən bəyənilərək nümunə kimi tətbiq olunur. "Azərbaycan modeli tarixi və milli köklərə bağlı olduğu üçün digər modelləri üstələyir. Bu gün multikulturalizm dövlət siyasəti olmaqla yanaşı, həm də xalqımızın mənəviyyatını, mədəniyyətini, sülhsevərliyini sübut edən mənbədir. Azərbaycandakı mövcud tolerantlığın və multikulturalizmin təkcə azərbaycanlıların deyil, xarici ölkə alimlərinin, siyasət nümayəndələrinin, həmçinin gənclərin gözü ilə dünyaya təqdim edilməsi müsbət ənənəyə çevrilmişdir" [3].

Multikultural inkişafın parlaq nümunəsi müasir Azərbaycandır. Ölkəmizin multikultural inkişafın mərkəzinə çevrilməsi, Azərbaycan multikulturalizmi modelinin bir çox müasir cəmiyyətlər üçün nümunəvi model olması ümumilikdə qəbul edilmiş faktdır. Dövlət başçısı İlham Əliyev Azərbaycanın multikulturalizm modelinin olduqca dəqiq və qısa tərifini vermişdir: "Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir… Əlbəttə, bunun üçün ənənələr lazımdır, eyni zamanda dövlət siyasəti də lazımi səviyyədə aparılmalıdır. Azərbaycanda hər iki amil mövcuddur" [6, s.64].

Bu gün Azərbaycanın multikultural siyasətində iki amil – ölkə rəhbərliyinin multikultural təhlükəsizliklə əsaslandırılmış siyasi qərarları və Azərbaycan xalqının çoxəsrlik tolerant ənənələri üst-üstə düşür, bir-birini tamamlayır. Qərbi Avropa ölkələrindən fərqli olaraq Azərbaycanda multikulturalizm bu qədim torpağın bütün sakinlərinin tarixən dəstəklədikləri həyat tərzidir. Azərbaycan millətinə respublikamızda yaşayan bütün xalqlar daxildir və onların hamısı azərbaycanlıdır.

**Nəticə.** Tədqiqatımızın yekunu kimi onu deyə bilərik ki, Azərbaycan xalqının tarixi ənənələri, dövlətin bu sahədə apardığı məqsədyönlü siyasəti və xalq tərəfindən bu siyasətin dəstəklənməsi ölkəmizi dünyanın ən mühüm multikulturalizm mərkəzlərindən birinə çevirib. Azərbaycan hazırda multikulturalizmi dövlət siyasəti kimi qəbul edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Ölkəmizdə bu sahədə bərqərar olan münasibətlər təsdiq edir ki, multikulturalizm xalqımızın tarix boyu formalaşan milli keyfiyyətidir və bütün dövrlərdə cəmiyyətin yaşam tərzi olub. Bu gün isə reallıq odur ki, artıq multikulturalizmin Azərbaycan modeli formalaşıb və bu, mükəmməl örnək kimi ölkəmizdəki çoxsaylı fərqli etnik qrupların sülh şəraitində yaşamasına, bərabərhüquqlu fəaliyyətinə tam zəmin yaradır.

Azərbaycanda tarixən mövcud olan milli və dini tolerantlıq ənənələrinin bu gün dünya ölkələri və beynəlxalq qurumlar tərəfindən dəstəklənməsi dövlət başçısı tərəfindən yeridilən düzgün siyasətin nəticəsidir. Bu gün ölkədə bütün milli, dini, etnik qrupların bərabər səviyyədə inkişafı təmin edilir, gender bərabərliyi qorunulur, fiziki azlıqların cəmiyyətə rahat adaptasiya olunmasına şərait yaradılır.

## İstifadə edilmiş ədəbiyyat

1. Cavadov A.R. Multikulturalizmin Azərbaycan modeli (1-ci yazı). "Yeni Azərbaycan" qəzeti, 18 oktyabr 2023, №190, s.6.

2. Cavadov A.R. Multikulturalizmin Azərbaycan modeli (2-ci yazı). "Yeni Azərbaycan" qəzeti, 19 oktyabr 2023, №191, s.6.

3. Eyvazlı A.R. Azərbaycanda multikulturalizm və onun inkişaf mərhələləri. "525-ci qəzet", 14 dekabr 2018-ci il.

https://525.az/news/111811-azerbaycanda-multikulturalizm-ve-onun-inkisaf-merheleleri 14 dekabr 2018-ci il.

4. Həsənov R.V. Azərbaycan multikulturalizmi: müdrik siyasətin məntiqi nəticəsi. 24 dekabr. https://multikulturalizm.gov.az/az/post/2014/azerbaycan-multikulturalizmi-mudrik-siyasetin-mentiqi-neticesi.html.

5. İsmayılova E.X. Məhəmmədhüseyn Şəhriyarın ana dilli yaradıcılığında multikulturallıq və tolerantlıq elementləri. “Müasir təlim texnologiyalarının tətbiq olunmasının təhsilin keyfiyyətinə təsiri” mövzusunda gənc tədqiqatçıların respublika elmi-praktik konfransının materialları. Lənkəran Dövlət Universiteti, 24 dekabr, s.136.

6. Məmmədov C.V. Azərbaycan multikulturalizmi (ali məktəblər üçün dərslik). Bakı; BBMM, 2017, 419 s.

7. Mir-Bağırzadə S.A. Multikulturalizmə giriş (ali məktəblər üçün dərslik). Bakı, AMEA-nın mətbəəsi, 2021, 120 s.

8. Multikulturalizmin Azərbaycan modeli: dünyanın mükəmməl nümunəsi. Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirinin xidməti, Ağsaqqallar Şurası, “Azərbaycan” qəzeti və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə keçirdiyi konfrans, “Azərbaycan” qəzeti, 10 mart 2016, s.5-7.

**E.Ismayilova**

## The Azerbaijanı model of multiculturalism: general and distinctive features

### Abstract

The article analyzes the main characteristics and distinctive features of the Azerbaijani model of multiculturalism, as well as the role and activities of National leader Heydar Aliyev and the President of the Republic of Azerbaijan Ilham Aliyev, in the development of multiculturalism in the country. Also the study examines the specific models of multiculturalism in various countries (Sweden, Australia, Canada and the USA) alongside the international recognition, successful implementation, and outcomes of the Azerbaijani model of multiculturalism. At the same time, the article analyzes the main features of state policy implemented in recent years aimed at preserving the multicultural traditions of the Azerbaijani people were analyzed and the successful results of state policy pursued to preserve cultural, linguistic, religious, and ethnic diversity in the country are examined on the basis of recent experience, analyzed and synthesized, and generalized conclusions are drawn. While studying the state of ensuring a tolerant environment and the preservation of cultural, religious, and linguistic diversity in the country, attention is also given to international events and scientific conferences held on issues of multiculturalism, interethnic and interfaith relations, and dialogue, and their significance is explained.

**Э.Исмаилова**

## Азербайджанская модель мультикультурализма: общие и отличительные особенности

### Аннотация

В статье анализируются основные особенности и отличительные черты Азербайджанской модели мультикультурализма, а также роль и деятельность Общенационального лидера Гейдара Алиева и Президента Азербайджанской Республики Ильхама Алиева в развитии мультикультурализма в стране. А также в исследовании наряду со специфическими моделями мультикультурализма в различных странах (Швеция, Австралия и Канада, США) рассматриваются признание азербайджанской модели мульти-культурализма в мире, её успешное внедрение в стране и полученные результаты. Одновременне анализируются основные особенности государственной политики, реализуемой в последние годы в направлении сохранения мультикультурных традиций азербайджанского народа, на основе опыта последних лет исследуются успешные результаты государственной политики, направленной на сохранение культурного, языкового, религиозного и этнического многообразия в стране, проводится анализ и синтез, формулируются обобщающие выводы. При изучении состояния обеспечения толерантной среды и сохранения культурного, религиозного и лингвистического разнообразия в стране параллельно рассматриваются международные мероприятия и научные конференции, посвящённые вопросам мультикультурализма, межнациональных и межконфессиональных отношений и диалога, а также раскрывается их значение.